# GƏNCƏ ŞƏHƏRİNİN SOSİAL DEMOQRAFİK İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**E.M. Qarayeva**
Magistr
Bakı Dövlət Universiteti
garayeva.esmira@mail.ru

Məqalədə Gəncə şəhərinin tarixi inkişafında əhali sayının dəyişilməsi və müasir dövrdə sosial-demoqrafik inkişaf xüsusiyyətlərinin təhlili verilmişdir. Şəhər əhalisinin son illərdə təbii artım və miqrasiya xüsusiyyətləri həmçinin nikah və boşanma prosesləri araşdırılmışdır. Əhalinin cins və yaş xüsusiyyətlərində baş verən meyillərin təbii artım prosesi ilə əlaqəsi təhlil edilmişdir. Gələcəkdə demoqrafik inkişafda hansı istiqamətdə işlərin görülməsi təklif edilmişdir.

***Açar sözlər:*** *Gəncə, demoqrafik proseslər, təbii artım, miqrasiya, nikah, boşanma.*

Gəncə şəhəri Azərbaycanın ən qədim şəhərlərindən biri olub. Böyük ipək yolunun üzərində yerləşib, müxtəlif dövrlərdə paytaxt rolunu oynamışdır. Bu şəhər Azərbaycanın Rusiya işğalı dövründə Yelizavetpol aldanmış. 1918-ci ildə adı yenidən bərpa edilmiş, 1935-ci ildə isə yenidən Kirovun şərəfinə Kirovobad aldanmışdir. 1989-cu ildə Gəncə adı yenidən bərpa olmuş. Şəhər öz tarixi adını yenidən bərpa etmişdir. Şəhərin inkişaf tarixində əhalisi haqqında dəqiq məlumatlar 1897-ci ildə 33,6 min nəfər və 1917-ci ildə 63,4 min nəfər olmuş, sovet dövründə isə 1921-ci ildə 42,5 min nəfər göstərilmişdir. 19-cu əsrin sonunda və 20-ci əsrin ortalarına kimi Gəncə Azərbaycanın 2-ci böyük şəhəri kimi məşhur olmuşdur. Sovet dövrünün sonuna kimi Gəncə əhali sayına görə Azərbaycan 2-ci şəhəri olmuşdur. 1959-cu ildə əhali sayı 138 min nəfər, 1970-ci ildə 190 min nəfər, 1989-cu ildə isə 280,6 min nəfər olmuşdur. Sovet dövrünün 1959-1989-cu illər ərzində əhali sayı 2 dəfə artdığı

halda, müstəqillik dövrü (1991-2023) isə cəmi 1,2 dəfə artmışdır. Hazırda şəhərin əhalisi 330,3 min nəfərdir, 2019-cu siyahıyaalınmasına görə daimi əhalinin sayı 328,8 min nəfər, mövcüd əhalinin sayı 352,2 min nəfər olmuşdur. Daimi əhalinin 500 nəfərdən çoxu qayıb, mövcüd əhalinin isə sayının 23,9 min nəfərini müvəqqəti yaşayanlar təşkil edir.

2009-2019-cu illər ərzində şəhər əhalisinin yaş tərkibində müsbət dəyişiliklər baş vermiş, beləki, əvvəlki on illikdə 10%-dək azalan uşaqların payı bu dövrdə 23,7-dən 24,3%-dək və ya mütləq sayda 74,2 min nəfərdən 79,9 min nəfərə kimi artmış, əmək qabiliyyətli əhalinin isə əksinə olaraq pay göstəricisi 67,2-dən 65,3%-dək azalmış, lakin mütləq sayda isə 210,7 min nəfərdən 214,7 min nəfərə kimi qismən artım olmuşdur. Bu dövrdə yaşlı əhalinin mütləq sayı 28,4 min nəfərdən 34,2 min nəfərə kimi və ya pay göstəricisi 9,1-dən 10,4%-dək artmışdır. Bu dövrdə əhalinin orta yaş göstəricisi 30,6-dan 33,0 yaşa kimi qalxmışdır.

Cədvəl 1.

Təbii artım göstəricilərin dinamikası (hər min nəfərə görə)

| Təbbi artım | | | | Doğum | | | | Ölüm | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 2015 | 2020 | 2022 | 2010 | 2015 | 2020 | 2022 | 2010 | 2015 | 2020 | 2022 |
| 6,3 | 6,4 | 0,2 | 2,2 | 12,5 | 12,2 | 8,9 | 8,7 | 6,2 | 5,8 | 8,7 | 6,5 |

Mənbə: Azərbaycan əhalisi DSK.Bakı 2011, 2016, 2021, 2023

Gəncə şəhərinin müstəqillik dövründə əhali sayı 50 min nəfərə kimi artmış, bu artımı böyük hissəsi təbii artım hesabına olmuş, miqrasiyanin artımı az olmuşdur. Ən aşağı təbii artım göstəriciləri 1995-2003-cü illərdə və 2017-ci ildən indiyə kimi davam etmişdir. Ən yüksək təbii artım göstəriciləri 2006-2012-ci illərdə olmuşdur. Son 10 ildə təbii artım proseslərində 2010-2019-cu illər ərzində əmsal göstəricisi az dəyişildiyi halda 2020-2022-ci illərdə isə kəskin azalmışdır. Doğum prosesində də belə azalma, ölümdə isə artım müşahidə edilmişdir.



Şəkil 1. Təbii artım göstəricilərin dinamikası (hər min nəfərə görə)

Təbii artım prosesləri xüsusi ilə son illərdə pandemiya ilə bağlı olaraq xeyli dəyişilmiş doğum göstəricisi hər min nəfərə 9-8‰ kimi, ölüm göstəricisi isə 8‰-dən çox olmuş. 2022-ci ildə isə doğum nisbətən azalaraq 8,7‰-a yaxın, ölüm əmsalı isə 6,5‰ olmuşdur. Təbii artım 2,2‰ olmuşdur.

Cədvəl 2.

Əhalinin nikah və boşanma göstəricilərin dinamikası (hər min nəfərə görə)

| Nikah | | | | Boşanma | | | |
|---|---|---|---|---|---|---|---|
| 2010 | 2015 | 2020 | 2022 | 2010 | 2015 | 2020 | 2022 |
| 6,6 | 6,5 | 2,6 | 5,1 | 1,2 | 2,2 | 1,8 | 1,8 |

Mənbə: Azərbaycan əhalisi DSK.Bakı 2011, 2016, 2021, 2023

Gəncə şəhər əhalisinin təbii artım proseslərinə təsir edən əsas amillərdən biri nikah və boşanmadır. Bu proseslərin təhlili göstərir ki, 2005-2015-ci illər ərzində nikahların nisbi əmsal göstəricisi cuzi dəyişilmiş, 2016-ci ildən sonra azalma meyilli olmuş və 2020-2021-ci illərdə isə 2 dəfədən çox azalmışdır. Bu ölkə şəhərləri arasında ən aşağı göstəricilərdən biri idi.



Şəkil 2. Əhalinin nikah və boşanma göstəricilərin dinamikası (hər min nəfərə görə)

Boşanma prosesində isə 2012-ci ilə kimi aşağı göstəricilər 2014-2015-ci ildən isə ən böyük göstəricilər müşahidə edilmişdir. 2022-ci ildə nikah göstərici (5,1‰) ölkə üzrə şəhər əhali göstəricisindən (6‰) qismən aşağı olmuşdur. Boşanma isə 1,8‰ ölkə göstəricisindən aşağı olmuşdur. Əhalinin maddi-sosial vəziyyətinin yaxşılaşması demoqrafik inkişaf xüsusiyyətinə müsbət təsir göstərdiyi üçün bu problemlərin həlli günün əsas tələbidir. Ölkədə ailə institutlarının fəaliyyəti gənc ailələrin formalaşmasında mühüm rol oynayır.

Nəticə: Təhlillərdən aydın olur ki, son illər şəhər əhalisinin təbii artım prosesində nisbi doğum əmsalı sürətlə aşağı düşmüş, ölüm əmsalı isə yüksəlmiş, bu səbəbdən təbii artım göstəriciləri də azalma xüsusiyyəti ilə fərqlənmişdir.

Şəhər əhalisinin miqrasiya proseslərində mənfi miqrasiya saldosu üstün olmuşdur. Bunun əsas səbəbi məşğulluq prosesi ilə bağlı olmuş işlə təmin olunması şəhərdə zəyif getdiyi üçün mənfi saldo yaranmasına səbəb olmuşdur.

Şəhər əhalisinin son illərdə nikah prosesində nisbi göstəricilər aşağı düşmüş, boşanma prosesində isə göstəricilər əksinə isə artımla müşahidə edilmişdir.

Təkliflər: Şəhərdə yeni istehsal müəssəsilərinin istifadəyə verilməsi gənclər üçün məşğulluq problemin həllində böyük rol oynadığı üçün demoqrafik proseslərə müsbət təsir edəcəkdir.

Ölkədə demoqrafik siyasət apararaq gənc ailələrə maddi yardım edilməsi, onların sosial mənzil ilə təmin edilməsini yaxşılaşdırılması; sosial-tibbi sahədə gənc ailələrə güzəştli yardımların olması vacib məsələlərindən biridir.

## Ədəbiyyat


1. Azərbaycan Sovet Ensiklopediyası, V cild. Bakı: 1981. 591 s.
2. Azərbaycan əhalisi. Bakı: DSK, 2011, 2016, 2021, 2023.
3. Azərbaycan əhalisinin siyahıyaalması, I cild. 1999, 2009, 2019. Bakı: DSK.
4. Bədəlov E.S., Cəfərova X.Ş., Bağırova F.R. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyası və Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda sosial-iqtisadi inkişaf problemləri // Qlabal iqtisadi şərait və Azərbaycanın iqtisadi-coğrafi mövqeyi mövzusunda Respublika elmi-praktik konfrans materialları. Bakı: BDU. 10 may 2017. s. 137-142.
5. Gəncə (tarixi oçerk), Bakı: Elm, 1994. 152 s.
6. Eminov Z.N. Azərbaycan Respublikasında əhalinin vahid məskunlaşması sisteminin formalaşdırılması və inkişafı (Gəncə iqtisadi rayonu timsalında) / dissertasiyasının avtoreferatı. Bakı: 1996, 26 s.


## CHARACTERISTICS OF SOCIO-DEMOGRAPHIC DEVELOPMENT OF GANJA CITY


The article analyzes the changes in the population in the historical development of the city of Ganja and the characteristics of socio-demographic development in the modern era. In recent years, the natural growth and migration characteristics of the urban population, as well as the marriage and divorce processes, have been investigated. The relationship between the trends in the

gender and age characteristics of the population and the natural growth process was analyzed. In the future, it was suggested that the work should be done in the direction of demographic development.
*Keywords: Ganja, demographic processes, natural growth, migration, marriage, divorce.*